Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

LALƏ HÜSEYNOVA

# ZEMFİRA QAFAROVA

Şərq East
Qərb West
"Şərq-Qərb" Nəşriyyat Evi
BAKI
2014

Lalə Hüseynova. Zemfira Qafarova
Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2014, 32 səh.

ISBN 978-9952-498-22-6

Elmi redaktor: Həcər Babayeva
Əməkdar incəsənət xadimi, professor

"Şərq-Qərb" Nəşriyyat Evi
BAKI 2014
www.eastwest.az
www.fb.com/eastwest.az
© "Şərq-Qərb" Nəşriyyat Evi, 2014



Musiqişünas alim, ictimai xadim və pedaqoq, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, Azərbaycan Bəstəkarlar İttifaqının katibi Zemfira xanım Qafarova milli musiqi elmi və tənqidi fikrinin inkişafında, musiqişünas kadrların hazırlanmasında xüsusi rolu və böyük zəhməti olan qabaqcıl, maarifpərvər ziyalılarımızdan biridir.

Üzeyir Hacıbəyli irsinin sanballı tədqiqatçısı kimi yarıməsrlik yaradıcılıq yolunda inamla addımlayan Zemfira xanım eyni zamanda bir sıra görkəmli bəstəkarların – Ramiz Mustafayev, Tofiq Bakıxanov, Şəfiqə Axundova, Hacı Xanməmmədovun, habelə istedadlı opera müğənnisi Əli Haqverdiyev və fleytaçı Telman Hacıyevin həyat və yaradıcılıq yoluna ilk

dəfə işıq salan dəyərli monoqrafiyalar ərsəyə gətirmiş, tədris vəsaitləri hazırlamış, yüzlərlə məqalələrə imza ataraq, televiziya və radio ekranlarında, geniş auditoriyalar qarşısında maraqlı çıxışları ilə böyük nüfuz qazanmışdır.

Zemfira Qafarovanın incəsənət aləminə gəlişi heç də təsadüfi olmamışdır. O, 1942-ci il noyabrın 22-də Bakıda, milli təsviri sənət tarixində özünəməxsus yer tutmuş iki tanınmış rəssam – Həsən Haqverdiyev və Xalq rəssamı Güllü Mustafayevanın ailəsində dünyaya göz açmış və beləliklə, lap erkən yaşlarından rənglər və səslər dünyası ilə sıx təmasda böyümüşdür. Xalq rəssamı Əzim Əzimzadənin sevimli tələbələrindən biri olmuş Həsən Haqverdiyev Azərbaycanda rəngkarlıq sənətinin təşəkkül tapdığı dövrdə onun ilk istedadlı nümayəndələrindən idi. Rəssamın “Puşkin Qriboyedovun məzarı önündə” adlı əsəri indi də Moskva şəhərində A.S.Puşkin Muzeyində qorunub saxlanılır. Həsən Haqverdiyevin keşməkeşli həyatının bir maraqlı məqamı da yalnız 1990-cı ildə, ölümündən neçə il sonra məlum olmuşdur. 1943-cü ildə almanlara əsir düşmüş gənc rəssam o zaman Berlində yaşayan Azərbaycan Xalq Cümhuriyyətinin banisi, Nizami haqqında Azərbaycanda ilk elmi-tədqiqatın müəllifi M.Ə.Rəsulzadənin xahişi ilə Nizami Gəncəvinin portretini qələmə almışdı.

Zemfira xanımın anası Güllü xanım Mustafayeva isə Azərbaycanın qüdrətli satira ustası Mirzə Ələkbər Sabirin nəslindən olan Şamaxının tanınmış maarifçi ziyalısı Hacı Naim Mustafayevin ailəsində dünyaya göz açmışdır. Lakin 1902-ci ildə Şamaxıda baş vermiş dağıdıcı zəlzələdən sonra ailə bir müddət Cərco şəhərində (bu şəhər Türkmənistanda yerləşir) məskunlaşmış və burada da Hacı Naim xeyirxah əməlləri ilə böyük hörmət qazanmışdı. Onun təşəbbüsü ilə şəhərdə qızlar məktəbi açılmış, Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun", "Arşın mal alan" operettaları tamaşaya qoyulmuşdu. Belə bir maarifpərvər ailədə övladlara verilən hərtərəfli və mükəmməl təlim-tərbiyənin, incəsənətə, musiqiyə olan hədsiz sevginin nəticəsidir ki, gələcəkdə onun 3 üzvü həyatını bütövlükdə sənətə həsr etmişdir. Ramiz Mustafayev görkəmli bəstəkar, Faiq Mustafayev dirijor, Güllü Mustafayeva isə ilk qadın rəssamlardan biri kimi milli mədəniyyət tariximizə düşmüşdür.

Zemfira xanım yaxşı xatırlayır ki, qədim İçərişəhərin dar küçələrinin birində yerləşən evlərinin qonşuluğunda bir sıra tanınmış ziyalı ailələri yaşayır və mehribancasına dostluq edirdilər. Yazıçı-folklorşünas Məmmədhüseyn Təhmasib və onun Bakının sayseçmə ədəbiyyat müəllimlərindən biri kimi tanınıb sevilən həyat yoldaşı Bilqeyis xanım Məmmədova, gözəl rəssam cütlüyü Lətif Feyzullayev və Vəcihə Sə-

mədova, heykəltəraşlar Fuad Əbdürrəhmanov və Cəlal Qaryağdı, Zemfira xanımın dayıları – bəstəkar Ramiz Mustafayev və dirijor Faiq Mustafayev, habelə müğənni Firudin Mehdiyev bu qonaqpərvər ailənin daimi qonaqları idi. Zemfira xanımgilin evindən tez-tez musiqi sədaları eşidilərdi: məlahətli səsə malik anası Güllü xanım xalq mahnıları ilə yanaşı, sevdiyi ariya və romansları həvəslə ifa edər, rəssam atası isə yaxşı tar çalardı. Ailə məclislərində və şənliklərində öz gözəl ifaları ilə qonaqları valeh edən Güllü Mustafayeva və Həsən Haqverdiyevin bu istedadı onların övladlarına – gələcəyin məşhur opera müğənnisi Əli Haqverdiyevə və görkəmli musiqişünas-alim Zemfira Qafarovaya da sirayət etmişdir. Etiraf edim ki, bəzən Zemfira xanımın piano arxasına keçərək gözəl soprano səsi ilə şövqlə çalıb-oxuması bizlərə daim böyük zövq aşılayır.

Lakin dövranın sərt gərdişi Zemfira xanımın ailəsindən də yan keçməmiş, onu ən ağır çətinliklərlə üzləşdirmişdir. İkinci Dünya müharibəsində başından yaralanıb almanlara əsir düşən Həsən Haqverdiyev əsirliyin və onun sovet dönəmində törətdiyi bütün fəsadların – xalq düşməni kimi 13 illik həbsin və sürgün həyatının acı-ağrılarını öz taleyində yaşamalı olmuşdu. Zemfira xanımın hafizəsində isə bu amansız dövr sözün əsl mənasında ağır atasızlıq dövrü kimi dərin və silinməz bir iz qoydu... Lakin

bütün çətinliklərə baxmayaraq, Güllü xanım Mustafayeva öz övladlarının hərtərəfli təlim-tərbiyəsi üçün əlindən gələni əsirgəmədi. Bütün bu olayları Zemfira xanım uzun illər sonra mərhum qardaşı, faciəli şəkildə həyatdan getmiş Əli Haqverdiyev haqqında yazdığı kitabında ətraflı və təsirli bir şəkildə qələmə almışdır.

Zemfira xanımın musiqi biliklərinə yiyələndiyi ilk təhsil ocağı hazırda Rəşid Behbudovun adını daşıyan 2 nömrəli 7 illik musiqi məktəbi olub. Onun pianoçu kimi məktəb uğurları hətta o dövrün nüfuzlu mətbu orqanı olan "Бакинский рабочий" qəzetinin səhifələrində yer almışdı. "Gənc musiqiçilərin konserti" adlanan resenziyada 2 nömrəli musiqi məktəbinin 7-ci sinif şagirdi Zemfira Haqverdiyevanın yaddaqalan əla ifası xüsusi vurğulanmışdı.

Musiqiyə olan həvəs tez bir zamanda onu bu sənətlə daha ciddi məşğul olmağa sövq edir. 1957-ci ildə Bakının say-seçmə təhsil ocaqlarından biri olan 134 nömrəli orta məktəbi və 2 nömrəli musiqi məktəbini bitirən Zemfira xanım bunun ardınca Asəf Zeynallı adına Musiqi Texnikumunda dörd il ərzində orta ixtisas musiqi təhsili alır. 1961-ci ildə texnikumu əla qiymətlərlə başa vurur və elə həmin il qəbul imtahanlarını müvəffəqiyyətlə verərək Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (o zaman bu təhsil müəssisəsi Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Kon-

servatoriyası adlanırdı) tarix-nəzəriyyə fakültəsinə daxil olur. Zemfira xanım təhsil illərindən danışarkən oxuduğu təhsil ocaqlarını və müəllimlərini hər zaman böyük sevgi və ehtiramla xatırlayır. Gözəl musiqiçi və pedaqoq Rəna Fərhadova, hərtərəfli ensiklopedik biliyə malik Zaxar Stelnik, Hacıbəylilər nəslinin layiqli nümayəndələrindən biri olan Nazim Əliverdibəyov, gözəl bəstəkar və pedaqoq Musa Mirzəyev, görkəmli musiqişünaslar İzabella Abezqauz, Lüdmila Karagiçeva, Danil Danilov, sonralar dissertasiya işinə də rəhbərlik etmiş Elmira Abasova onun nəzəriyyəçi kimi püxtələşməsində böyük rol oynamışlar. "...O dövrün konservatoriyası əsl musiqi məbədi idi. Buraya gələndə sanki müqəddəs məbədə daxil olurmuş kimi, qəlbimizdə kövrək bir həyəcan və şükranlıq hisləri baş qaldırırdı... Biz indi də o illəri konservatoriyanın "renessans" dövrü kimi yad edirik..." – sevimli müəllimi Rəna Fərhadova, mükəmməl rektor kimi tələbələrin yaddaşında daim böyük ehtiram və sevgi ilə xatırlanan görkəmli bəstəkarımız Cövdət Hacıyev haqqında səmimi yazılarında Zemfira xanım 50 ilə yaxın çalışdığı doğma ali məktəbin o zamankı ovqatını belə səciyyələndirir.

1966-cı ildə Konservatoriya təhsilini əla qiymətlərlə başa vurması ona bu qocaman musiqi ocağında müəllimlik hüququ qazandırır. Lakin təhsil

müddəti bununla başa çatmır: elmə həvəs onu AMEA-nın Memarlıq və İncəsənət İnstitutuna gətirir və gənc tədqiqatçı 1968-1972-ci illərdə burada aspiranturada oxuyur. Artıq gənc ikən Z.Qafarovanın musiqişünas istedadı özünü ən müxtəlif istiqamətlərdə büruzə verir: o həvəslə araşdırmalar aparır, konsertlərdə ön sözlə çıxış edir, annotasiya və resenziyalar yazır. Elə bu illərdə onun ölməz Üzeyir Hacıbəyli irsinə xüsusi marağı yaranır və görkəmli tarixçi-musiqişünas, Üzeyir bəyin yaxın qohumu Qubad Qasımovun məsləhəti ilə o, "Koroğlu" operasını özünün elmi-tədqiqat işi kimi seçir. Nəhayət, 1984-cü ildə Zemfira xanım uzun illər ərsəyə gətirdiyi namizədlik dissertasiyasını Daşkənd şəhərində (qeyd edək ki, o zaman musiqişünaslıq üzrə ixtisaslaşmış müdafiə şuraları yalnız bir neçə şəhərdə fəaliyyət göstərirdi: Bakı bu siyahıya daxil deyildi) böyük uğurla müdafiə edir. Xüsusi qeyd etmək lazımdır ki, Z.Qafarovanın "Koroğlu" operasına həsr olunmuş sanballı tədqiqatı indi də bu opera haqqında yazılmış elmi araşdırmalar sırasında hərtərəfli yanaşma tərzinə görə məxsusi çəkiyə və mövqeyə malikdir.

Zemfira xanımın tərcümeyi-halından göründüyü kimi, onun uşaqlığı və yeniyetməlik dövrü ötən əsrin 40-50-ci illərinin ağır və ziddiyyətli ictimai-siyasi

durumu şəraitində keçsə də, bir fərd halında formalaşması artıq 60-cı illərin mülayimləşmiş siyasi iqliminə təsadüf etmişdir: sovet dövləti qatı mühafizəkarlıq, qapalılıq ideologiyasına dayaqlanan totalitar rejimin demokratik ideyalarla üzləşməsinin ilk dövrünü yaşayırdı. Sirr deyil ki, məhz bu dövrün intellektual, yaradıcılıq potensialı sonrakı illərin də durumunu müəyyənləşdirdi. Bütövlükdə 60-cı illər Azərbaycanın musiqi həyatında köklü islahatlar, estetik dünyagörüşünün müasirləşməsi mərhələsi kimi son dərəcə maraqlıdır. Bu özünü həm musiqi məzmununda, həm də kompozisiya metodları və üslub təmayüllərinin tətbiqində bariz şəkildə büruzə verirdi. Yeni nəslin bəstəkarları yenilik axtarışında cəsarətlə sənət meydanına atılır, gənc musiqişünaslar isə onlara yaxından dəstək olurdular. Respublikanın musiqi həyatında koordinasiya mərkəzi kimi bu mühüm prosesləri daim tənzimləyən, onlara təkan verən Azərbaycan Bəstəkarlar İttifaqında o zaman musiqişünas üzvlərin sayı az olsa da (1973-cü ildə İttifaqda 60 bəstəkar və cəmi 19 musiqişünas var idi), onların fəaliyyəti musiqişünaslığın əksər sahələrini əhatə edirdi. Maraqlıdır ki, Bəstəkarlar İttifaqının IV qurultayında ilk dəfə olaraq "Respublikamızda musiqişünaslığın vəziyyəti"ni ayrıca məruzədə araşdıran (adətən, bu məsələ Bəstəkarlar İttifaqı İdarə heyətinin ümumi hesabat məruzəsində

əks olunurdu) İttifaqın o zamankı Musiqişünaslıq bölməsinin sədri Elmira Abasova gənc musiqişünasların fəaliyyətini dəyərləndirərkən, İttifaqa hələ üzv olmayıb, lakin onun həyatında fəal iştirak edən bir neçə istedadlı musiqişünası və bu sırada Zemfira Qafarovanı xüsusi qeyd etmişdi.

Həqiqətən də, Zemfira xanım ali təhsilini fərqlənmə diplomu ilə başa vurduqdan sonra nəinki Konservatoriyada müəllim kimi işə başlayıb elmi fəaliyyətini genişləndirir, habelə Bəstəkarlar İttifaqının gündəlik işində əzmlə çalışir. O, yeni əsərlərə annotasiyalar yazır, məlumat kitabçalarının tərtibində, İttifaqda vaxtaşırı keçirilən yeni əsərlərin dinləmələrində yaxından iştirak edir və bu zaman müstəqil fikrini cəsarətlə söyləməkdən çəkinmir. Artıq bu dövrdə Z.Qafarovanın yeni əsərlərə, tamaşa və konsertlərə ilk resenziya və məqalələri Ümumittifaq və respublika əhəmiyyətli nüfuzlu mətbu orqanlarında – "Советская музыка", "Qobustan", "Azərbaycan", "Azərbaycan qadını", "Литературный Азербайджан" jurnallarında, "Kommunist", "Ədəbiyyat və incəsənət", "Бакинский рабочий", "Azərbaycan gəncləri", "Bakı", "Баку", "Молодежь Азербайджана" qəzetlərində işıq üzü görür. Üzeyir Hacıbəylinin "Koroğlu" operasına həsr olunmuş ilk elmi məqalələrin nəşri də bu dövrə təsadüf edir. Əlamətdardır ki, Zemfira xanımın 2008-ci ildə nəşrdən çıxmış



"Azərbaycan musiqi incəsənəti" kitabında onun 1969-2008-ci illər ərzində yuxarıda adı çəkilən qəzet və jurnallarda, habelə elmi dərgilərdə çap olunmuş çoxsaylı məqalələri, oçerk və resenziyaları toplanmışdır. Bu dəyərli toplu nəinki musiqi tariximizin maraqlı səhifələrinə işıq salır, habelə musiqişünasın geniş maraq dairəsindən xəbər verir. Sanki "refren" rolunu oynayan Üzeyir Hacıbəylinin çoxşaxəli yaradıcılıq məqamları ilə yanaşı, biz burada XX əsr zəngin musiqi sənətimizin bütöv bir simalar qalereyasını görürük. Bəstəkarlar Qara Qarayev, Fikrət Əmirov, Cahangir Cahangirov, Tofiq Quliyev, Hacı Xanməmmədov, Süleyman Ələsgərov, Ramiz Mustafayev, Oqtay Zülfüqarov, Fəridə Quliyeva, İbrahim Məmmədov, Şəfiqə Axundova, Arif Məlikov, Tofiq Bakıxanov, Aqşin Əlizadə, Firəngiz Əlizadə, musiqişünaslar Elmira Abasova, Rəna Fərhadova, Aida Tağızadə, Gövhər Hüseynova, habelə ifaçılıq sənətimizin nümayəndələri – tarzənlər Bəhram Mansurov, Ramiz Quliyev, dirijor Kamal Abdullayev, violonçelçalan Eldar İsgən-

dərov, fleytaçı Telman Hacıyev, balerina Leyla Vəkilova, pianoçu Yelena Tartakovskaya, violinoçu Oqtay Kərimov, gənc dirijor Əyyub Quliyev haqqında müxtəlif illərdə qələmə alınmış məqalələr, önəmli mədəniyyət hadisələrinə, opera və balet tamaşalarına, konsert və müsabiqələrə yazılmış resenziyalar qarşımızda o dövrün musiqi həyatının rəngarəng mənzərəsini yaradır.

Qeyd etmək lazımdır ki, keçən əsrin 70-ci illərində Bəstəkarlar İttifaqının fəaliyyətində maarifçilik istiqaməti xüsusilə geniş vüsət almışdı və Zemfira xanım müxtəlif müəssisə və təşkilatlarda maraqlı mühazirələrlə həvəslə çıxış edirdi. Məhz Zemfira xanımın təşəbbüsü ilə 1978-ci ilin fevral ayında Azərbaycan Bəstəkarlar İttifaqı Bakının Əhmədli qəsəbəsindəki 48 nömrəli məktəbdə “Gözəlliklə görüşlər” adı altında musiqi lektoriyası açmışdı. Zemfira xanımın aybaay təşkil etdiyi bu məşğələlərə məşhur bəstəkar və ifaçılar dəvət olunurdu. Onların arasında Tofiq Quliyev, Süleyman Ələsgərov, Nazim Əliverdibəyov, Oqtay Zülfüqarov, Şəfiqə Axundova, Emin Sabitoğlu, Sevda İbrahimova, Ramiz Mirişli, Azər Dadaşovun adlarına rast gəlirik. Zemfira Qafarovanın maarifçi-musiqişünas fəaliyyətində həmçinin 1983-1985-ci illərdə Daxili İşlər Nazirliyinin nəzdində yaradılmış Mədəniyyət Universitetində rektorluq dövrü, habelə Azərbaycan

Dövlət Konservatoriyasının Şamaxıda açdığı Musiqi Mədəniyyəti Universitetində fəal lektorluğu da xüsusi qeyd olunmalıdır. Bu illərdə Zemfira xanım eyni zamanda müxtəlif şəhərlərdə – Moskva, Kiyev, Riqa, Tbilisi, Daşkənd, Səmərqənd, Düşənbədə keçirilən nüfuzlu elmi məclislərdə maraqlı məruzələrlə çıxış etmiş, habelə rəsmi opponent qismində bir sıra dissertasiya müdafiələrinin fəal və səriştəli iştirakçısı olmuşdur.

Bütövlükdə 1981-1991-ci illər Zemfira Qafarovanın Konservatoriya həyatında yeni və önəmli bir səhifədir. Tarix-nəzəriyyə fakültəsinin dekanı kimi o, təşkilatçılıq bacarığı və səylərini gərgin tədris prosesinin nizam-intizamına yönəldərək, burada da yaradıcı təşəbbüskarlığını ən müxtəlif formalarda təzahür etdirə bilmişdir. Bu əsnada Zemfira xanımın tələbəsi olmuş professor, sənətşünaslıq doktoru Fə-



rəh Əliyevanın 2002-ci ildə "Şərqi" jurnalı vasitəsilə müəllliminə ünvanladığı təbrikindəki bəzi fikirləri xatırlatmaq yerinə düşür: "Əziz Zemfira xanım! Siz 80-ci illərdə tarix və nəzəriyyə fakültəsinin dekanı olduğunuz dövrdə həmkarlarınızı da, elə tələbələrinizi də həmişə bir şey təəccübləndirirdi. Axı dekanlıq kimi zəhmətli, çox məsuliyyətli bir işə gününün çox vaxtını sərf edən Zemfira xanım həm də yaradıcılıq işləri üçün necə vaxt tapırdı?! Monoqrafiya çap etdirir, broşürlər yazır, məruzələrlə çıxış edir, gözəl mühazirələr deyir, mətbuat səhifələrində musiqi həyatının yeniliklərini məqalə və resenziyalarda işıqlandırırdınız. Siz bütün bu işləri sanki birnəfəsə, asanlıqla görürdünüz. Lakin bu yüngüllüyün arxasında böyük zəhmət və istedad dururdu. Bir də peşəsinə, musiqiyə vurğunluq... Zemfira xanımın xarakterində bir gözəl keyfiyyət də var. O, həyatsevər, insanpərvər, ləyaqətli şəxsiyyətdir. Böyüklə böyük, kiçiklə kiçikdir. Nə qədər yorğun, qayğılı olsa da, üzündən, dilindən xoş sözlər əskik olmur". Yəqin, indi Azərbaycanda elə bir musiqi təhsili ocağı yoxdur ki, orada Zemfira Qafarovanın tələbələrinə və yaxud onu qayğıkeş dekan kimi minnətdarlıq hissi ilə xatırlayan Konservatoriya məzunlarına rast gəlməyəsən. Hal-hazırda bizim nəslimizin də müəyyən uğurlar əldə etmiş nümayəndələri arasında məhz Zemfira xanımdan dərs almış, bilavasitə onun xeyir-

duası ilə musiqişünaslığa gəlmiş mütəxəssislər vardır. Zemfira xanımın diqqət və qayğısı bizlərdən heç vaxt əskik olmur və onun müdrik məsləhət və tövsiyələrinə daima ehtiyac duyuruq.

Zemfira xanım 80-ci illərdə təşəbbüskarı və təşkilatçılarından olduğu bir əlamətdar və deyərdim ki, Şərq aləmində unikal bir mədəniyyət hadisəsini də xüsusi fəxarət hissi ilə xatırlayır. Bu, 1986-cı ildə Bakıda baş tutmuş və dahi Üzeyir bəyin adını daşıyan Zaqafqaziya, Orta Asiya və Qazaxıstan respublikaları Xalq çalğı alətləri ifaçılarının müsabiqəsidir. Çoxlarının hafizəsində dərin iz qoymuş bu möhtəşəm hadisənin təfsilatlarını Zemfira xanım ayrıca bir yazıda qələmə də almışdır. Qeyd edək ki, Şərq xalqlarının musiqisinə həsr olunmuş müsabiqə və simpoziumların, o cümlədən Üzeyir Hacıbəylinin adı ilə bağlı festival və konfransların keçirilməsi indi artıq möhkəm bir ənənəyə çevrildiyi halda, sovetlər dönəmində bu kimi tədbirlər nadir hallarda baş tuturdu. Məhz buna görə də Üzeyir Hacıbəyli adına ilk ifaçılıq müsabiqəsi musiqi tariximizin şərəfli səhifələrindən birini təşkil edir və Zemfira xanım buradakı iştirakını həyatının ən önəmli məqamlarından biri sayır.

Zemfira Qafarovanın tədqiqatları içərisində başlıca yeri də, şübhəsiz ki, Üzeyir Hacıbəylinin yaradıcılıq irsinə həsr etdiyi araşdırmaları və bilavasitə "Koroğlu" operası ilə bağlı monoqrafiyası tutur. Bu,

musiqişünas T.B.Broslavskayanın təbirincə desək, əslində, "Koroğlu" haqqında kompleks şəklində yazılmış ilk tədqiqatdır və qarşıya qoyulmuş məqsədin geniş miqyası ilə diqqəti cəlb edir". Həqiqətən də, monoqrafiyanın artıq mündəricəsində eyniadlı el dastanının tarixi təkamülündən tutmuş operanın bütün komponentlərinin ardıcıl surətdə təhlilə cəlb edilməsinin şahidi oluruq.

Bütün tədqiqat boyu müəllif əsas bir məqamı xüsusi önə çəkir: Üzeyir Hacıbəylinin yaradıcılığı (bu xüsusda "Koroğlu" operası) Azərbaycan musiqi mədəniyyətində yeni səhifə açmaqla yanaşı, dünya musiqisi xəzinəsini zənginləşdirmiş, onun inkişafına, Qərb və Şərq mədəniyyətlərinin qarşılıqlı çulğalaşma prosesinə əsaslı şəkildə təsir etmişdir. Monoqrafiyanın giriş hissəsində oxuyuruq: "Koroğlu" operasında Hacıbəyli Azərbaycan və dünya klassikasının təcrübəsini üzvi şəkildə cəmləşdirmiş, bütün elementlərin qeyri-adi dərəcədə üzvi vəhdətinə nail olmuş və yeni keyfiyyət əldə edərək Hacıbəyli üslubunu yaratmışdır". Müəllif fəsildən-fəslə Hacıbəyli üslubunun nədən ibarət olması barədə sərrast elmi müddəalarını ortaya qoyur.

Məlumdur ki, "Koroğlu"nu çox vaxt və haqlı olaraq Hacıbəyli üslubunun ensiklopediyası adlandırırlar. Burada bəstəkarın bədii kəşf və tapıntıları sanki bir küll halında əksini tapmışdır. Diqqətəlayiqdir ki, monoqrafiyanın "Koroğlu"nun üslub cizgi-

lərindən bəhs edən ayrıca bölümündə Z.Qafarova, əslində, ayrıca bir tədqiqatın mövzusu ola bilən əsaslı bir məsələyə də toxunmuşdur. O, burada ardıcıl olaraq Hacıbəylinin novator musiqi dilinin bütün komponentləri – melodika, lad-məqam, ritm, harmoniya, polifoniya və orkestr vasitələrinin xüsusiyyətlərini konkret nümunələr əsasında və inandırıcı dəlillərlə açıb göstərmiş, dəyərli elmi nəticələrə gəlmişdir.

Zemfira Qafarovanın fundamental tədqiqatının sonundakı fikirləri, zənnimizcə, onun "Koroğlu"ya həsr edilmiş araşdırmalarına məntiqi yekun vurur: "Koroğlu" operasının əhəmiyyəti yalnız milli mədəniyyət çərçivəsi ilə məhdudlaşmır. XX əsr Azərbaycan bədii fikrinin mütərəqqi axtarışlarından doğulmuş bu əsər milli olduğu qədər də beynəlmiləl əhəmiyyət kəsb edərək, eyni zamanda dünya musiqisində bir hadisədir... Bu əsər "dövrünün estetik zirvəsi kimi" klassik opera sənətinin qızıl fonduna daxil olmuşdur".

Zemfira Qafarova o dəyərli musiqişünaslarımızdandır ki, elmi yaradıcılığı və fəaliyyəti yalnız bir mövzu çərçivəsində qapanıb qalmamışdır. 50 ilə yaxın bir fəaliyyəti dövründə o, bir sıra görkəmli bəstəkarlarımızın yaradıcılıq irsinə, ilk dəfə olaraq, monoqrafik tədqiqatlar həsr etmişdir. Tamamilə təbiidir ki, bu sırada görkəmli bəstəkarımız, Azərbaycanın



Xalq artisti, Zemfira xanımın boya-başa çatdığı ailədə musiqi mühitinin formalaşmasında müstəsna rolu olan dayısı Ramiz Mustafayevin xüsusi bir yeri vardır. Təsadüfi deyil ki, Zemfira xanımın 1979-cu ildə çap olunmuş ilk monoqrafiyası Azərbaycan musiqisində özünəməxsus yerə malik bu görkəmli bəstəkarın həyat və yaradıcılıq yoluna həsr olunmuşdur. 30 ildən sonra isə Zemfira xanım Ramiz Mustafayev haqqında yenidən işlənmiş və genişləndirilmiş böyük bir kitab ortaya qoymuşdur. Nəşrin 2011-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqında baş tutmuş təqdimatı unudulmaz həmkarımız Ramiz Mustafayevin 85 illiyinə həsr edilərək onun xatirəsinə sanballı bir töhfə kimi qiymətləndirilmişdir.

Üç hissədən ibarət bu nəşri monoqrafik toplu kimi səciyyələndirmək olar. Toplunun 1-ci hissəsini

professor Zemfira Qafarovanın bəstəkar Ramiz Mustafayevin həyat və yaradıcılıq yolunu müfəssəl əks etdirən dəyərli tədqiqatı – monoqrafiyası təşkil edir. İlk fəsildə bəstəkarı boya-başa çatdırmış mühit, onu özfəaliyyətdən peşəkarlığa, aktyorluq və ifaçılıqdan bəstəkarlığa aparan yolun əsas məqamları üzə çıxarılır. Zemfira Qafarova qeyd edir ki, onun yaradıcılıq simasının formalaşmasına, ilk növbədə, Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Cahangir Cahangirovun musiqisi əhəmiyyətli təsir göstərmiş və təbiidir ki, yaxşı səsə, aktyorluq istedadına malik Ramiz Mustafayevi teatr və vokal musiqisi (xor musiqisini də buraya şamil etmək olar) daha çox maraqlandırmışdır. Beləliklə, musiqi təhsilini iki ixtisas üzrə – vokalçı və bəstəkar kimi bitirərək diplom işi qismində "Şirin" operasını yazmış, bunun ardınca isə tez bir zamanda "Hacı Qara", "Axırı yaxşı olar", "Qonşumuzda bir oğlan var" musiqili komediyalarını ortaya qoymuş bu sənətkarın yaradıcılığında gələcəkdə məhz teatr və vokal musiqisi ana xətti təşkil etmişdir. Gəldiyi bu qənaətə istinadən Zemfira xanım növbəti II fəsli bütövlükdə R.Mustafayevin yaradıcılıq məramının qabarıq təcəssümünə – 1960-cı ildə ilk dəfə səhnələşdirilmiş "Vaqif" operasının tədqiqinə həsr etmişdir. Artıq opera janrının təhlilində püxtələşmiş müəllif bu operanı ən müxtəlif aspektlərdən – ədəbi mənbədən tutmuş musiqi

dilinin xüsusiyyətlərinə kimi ardıcıl şəkildə araşdırmış, nəinki əsərin çoxsaylı məziyyətləri, habelə nəzərəçarpan bəzi dramaturji xətaları barədə də obyektiv mülahizələrini bildirməyi vacib saymışdır. Bu zaman Zemfira xanımın bir fikri ilə razılaşmamaq qeyri-mümkündür. Nəyə görə bir çox milli opera və baletlərimiz kimi, Ramiz Mustafayevin də "Vaqif" operası (özü də Qarabağın, Şuşanın şərəfli və keşməkeşli tarixini özündə yaşadan bir əsər) ancaq təsadüfdən-təsadüfə, bəstəkarın və yaxud operanın ədəbi əsasındakı dahiyanə pyesin müəllifi Səməd Vurğunun yubileyindən yubileyinə yada düşməlidir? Zemfira xanımın yazdığı kimi, əlbəttə, "canlı və səmimi bir musiqi dilində bəstələnmiş bu operanın yeni quruluşlarında, yeni ifaçılıq təfsirlərində, şübhəsiz ki, onun daha güclü və zəif tərəflərini üzə çıxartmaq, librettonun əyər-əskikliyini aradan qaldırmaq, bəzi süjet xətlərini, hadisələrin motivasiya məntiqini cilalamaq mümkündür".

Məlumdur ki, Ramiz Mustafayev balet janrı istisna olmaqla, akademik musiqinin əksər iri janrlarında, eləcə də mahnı kimi populyar sahədə çox məhsuldar işləyən bəstəkarlarımızdan idi. Monoqrafiyadan dəqiq bəlli olur ki, o, 5 opera, 6 operetta, 9 oratoriya, 5 kantata, 5 vokal-simfonik poema, 500-ə yaxın mahnı və romans bəstələmiş, 200-dən çox xalq mahnısını xor üçün işləmişdir. Buna istinadən,



Zemfira Qafarova monoqrafiyanın növbəti III, IV və V fəsillərini müvafiq surətdə R.Mustafayevin xor, simfonik və mahnı yaradıcılığının ayrı-ayrılıqda təhlilinə həsr etmişdir. Onu da demək lazımdır ki, Zemfira xanım indi də bu görkəmli bəstəkarın yaradıcılığına dərindən bələd olan və onu ayrıca tədqiqat işində hərtərəfli araşdırmış azsaylı (bəlkə də, yeganə) musiqişünaslarımızdan biridir. Elə buna görə də o, ərsəyə gətirdiyi kitabın 2-ci hissəsində oxucuları nəinki özünün, habelə Ramiz Mustafayev haqqında müxtəlif illərdə mətbuat səhifələrində çıxmış digər müəlliflərin bir sıra məqalə və resenziyası ilə tanış etmək qərarına gəlmişdir. Bu müəlliflər sırasında biz Ramiz Mustafayevin yaxın həmkarları olmuş görkəmli bəstəkar, musiqişünas və ifaçının – Tofiq Quliyev, Ramiz Zöhrabov və Lütfiyar İmanovun adlarına da rast gəlirik. Zənnimizcə, bəstəkar

Ramiz Mustafayevin portreti dolğun alınmazdı, əgər kitabda "Bəstəkar Ramiz Mustafayev haqqında xatirələr" adlı sonuncu 3-cü hissə olmasaydı. Tofiq Bakıxanov, Nəriman Məmmədov, Ramiz Quliyev, Sevda İbrahimova, Ramiz Heydər, Yalçın Adıgözəlov, Nazim Quliyev – hər birinin ürəkdən gələn xoş xatirələri və səmimi minnətdarlıq sözləri böyük zəhmətlə ərsəyə gətirilmiş bu kitaba, sözün əsl mənasında, işıqlı sonluq – epiloq vermişdir.

Zemfira Qafarova həmçinin görkəmli bəstəkarımız, Xalq artisti, professor Tofiq Bakıxanovun yaradıcılığına, ilk dəfə olaraq, ayrıca monoqrafiya həsr etmişdir. 1980-ci ildə "İşıq" nəşriyyatının nəfis tərzdə buraxdığı bu tədqiqatda bəstəkarın həyatı və çoxşaxəli irsi ardıcıl şəkildə izlənmiş, yaradıcılıq məramı və prioritetləri müəyyən olunmuşdur. Məlumdur ki, Tofiq Bakıxanov Ramiz Mustafayev kimi musiqinin ən müxtəlif fərqli janrlarında məhsuldar çalışmış bəstəkarlarımızdandır. Lakin Zemfira Qafarovanın vurğuladığı kimi, Bakıxanov yaradıcılığında kamera-instrumental musiqi xüsusi çəkiyə malikdir. Məhz bu sahə "müəllifə öz üslub və təfəkkürünü daha dolğun və bədii baxımdan inandırıcı şəkildə açmağa imkan vermişdir". Musiqişünas bunun səbəbini bir tərəfdən bəstəkarın violinoçu olmasında və bu ixtisas üzrə pedaqoji fəaliyyətində görürsə (Tofiq Bakıxanov uzun illərdir ki, Bakı Musiqi Akade-

miyasında kamera ansamblı sinfini aparır və daim bu sahədə milli musiqi repertuarının genişlənməsinə çalışır), digər tərəfdən maraqlı bir müşahidəsini ortaya qoyaraq bunun səbəbini, ümumiyyətlə, müasir Azərbaycan musiqisində kamera məfhumunun əzəldən iri sayılan janrlara – balet və operaya, simfoniya və kantataya əsaslı şəkildə sirayət etməsində görür. Tofiq Bakıxanovun birpərdəli baletləri də bu tendensiyanın bariz nümunələridir. Monoqrafiyada bəstəkarın bir sıra əsərlərinin – müxtəlif alətlər üçün sonata və konsertlərin təhlilinə geniş yer verən Zemfira Qafarova bilavasitə bəstəkarın üslubuna toxunarkən onu da qeyd edir ki, Bakıxanov heç vaxt dinləyicini nəyin bahasına olursa-olsun, təəccübləndirməyə səy göstərən sənətkarlardan deyil. Əksinə, onun musiqisində ilk nəzərdən ənənəvi, klassik düşüncə tərzi öndədir, yəni yenilik və müasirlik ənənələrlə sıx təmasda ortaya çıxır. Bu isə bəstəkarın həm də dinləyici qavrayışına daha yaxın olmaq istəyindən irəli gəlir. Bunun nəticəsidir ki, Bakıxanov istər musiqili komediya janrında, istərsə də mahnı kimi ən demokratik bir janrda maraqlı nümunələr yaratmışdır.

Sonralar da Tofiq Bakıxanovun yaradıcılıq yenilikləri və uğurları haqqında vaxtaşırı məqalə və resenziyalar çap etdirən Zemfira xanım 1992-ci ildə bu bəstəkara həsr olunmuş ana dilində yeni kitabça

nəşr etdirməyə müvəffəq olmuşdur. İnamla demək olar ki, son illər Bakıxanovun yaradıcılığı ilə bağlı ortaya çıxan yeni tədqiqatlar üçün məhz Z.Qafarovanın bu sahədəki ilkin və dəyərli araşdırmaları möhkəm özül rolunu oynamışdır. Bu fikirləri tam hüquqla Zemfira xanımın daha iki araşdırmasına şamil etmək olar. Bu, 1996-cı ildə işıq üzü görmüş "Şəfiqə Axundova" və 1998-ci ildə çap olunmuş "Hacı Xanməmmədov" monoqrafiyalarıdır.

Azərbaycan musiqi tarixinə ilk və ən məşhur qadın bəstəkarlardan biri kimi daxil olmuş, xalq tərəfindən çox sevilərək təravətini heç zaman itirməyən klassik mahnı nümunələri yaratmış Şəfiqə Axundovanın yaradıcılığı, etiraf edək ki, uzun illər musiqişünasların ciddi tədqiqat dairəsindən kənarda qalmışdı. Nə gizlədək, daha çox akademik janrlarda çalışan bəstəkarlarımızın yaradıcılığına üz tutan təqiqatçılarımız uzun illər, adətən, "yüngül" kimi səciyyələndirilən, lakin eyni zamanda son dərəcə geniş bir auditoriyanın zövqünü oxşayıb, yaradıcısından böyük istedad və peşəkarlıq tələb edən bir janra və onların hətta ən görkəmli müəlliflərinə belə biganə qalmışlar. Elə Zemfira xanımın Şəfiqə Axundovanın 75 illik yubileyi ərəfəsində çap etdirdiyi kitabı, əslində, bu tanınmış və xalq arasında böyük hörmət qazanmış bəstəkar haqqında, təəccüblü görünsə də, ilk monoqrafiya idi.

Mübaliğəsiz demək olar ki, Şəfiqə Axundovanın mənalı və keşməkeşli ömür yolu, yaradıcılıq məramı və istiqaməti barədə doğru-düzgün təsəvvür yaratmaq istəyən hər kəs üçün indi də bu kitabça ən yaxşı mənbədir. Burada bəstəkarın xatirələri, bu və ya digər əsəri haqqındakı maraqlı mülahizə və fikirləri obyektiv və dürüst musiqişünas şərhləri ilə təbii uzlaşır. Zemfira xanım bəstəkarın ən müxtəlif, hətta opera kimi mürəkkəb bir janrda qələmini sınamasını ayrıca qeyd etsə də, gəldiyi qənaətini sonda xüsusi vurğulayır. Şəfiqə Axundovanın istedadı özünün parlaq ifadəsini, ilk növbədə, məhz mahnı janrında tapmışdır və... "Şəfiqə xanım hər hansı janra – istər opera və ya operetta janrına, dram tamaşalarına musiqiyə, orkestr üçün əsərlərə müraciət etdikdə belə, hamısında mahnı melodiyası başlıca əhəmiyyət kəsb edir". Bununla da, bəstəkarın üslub və yaradıcılıq estetikasının əsas məğzi aşkar edilmişdir.

1998-ci ildə görkəmli bəstəkarımız, tar ilə simfonik orkestr üçün ilk konsertin müəllifi Hacı Xanməmmədovun 80 illiyinə Zemfira xanımın növbəti monoqrafiyası işıq üzü gördü. Artıq başlanğıc səhifədə bəstəkarın Azərbaycan musiqisindəki tarixi əhəmiyyətini konkret və aydın surətdə bəyan edən müəllif onu nəinki ilk tar konsertlərinin, habelə arfa və kamança üçün də ilk konsertin yaradıcısı olduğunu

diqqətə çatdırmış və fikrinin təsdiqi kimi ardıcıl surətdə bu konsertlərin təhlilini aparmışdır. Lakin bilavasitə əsərlərin təhlilinə keçməzdən müəllif burada da əvvəlcə Hacı Xanməmmədovu musiqi sənətinə, bəstəkarlığa və nəhayət, əsas bədii kəşflərinə aparan həyat yoluna diqqətlə nəzər salmış, müəllimləri Üzeyir Hacıbəylinin və Qara Qarayevin onun yetişməsində oynadığı müstəsna rolu dəyərləndirərək, bu parlaq musiqi hadisəsinin köklərini arayıb-axtarmışdır.

Zemfira Qafarova indi də istər elmi və pedaqoji, istərsə də musiqi-ictimai fəaliyyətini böyük əzmlə davam etdirir və həmişə olduğu kimi, üzvi şəkildə uzlaşdırmağı bacarır. 2005-ci ildə Türkiyənin Ədirnə



Konservatoriyasında yeddi illik səmərəli pedaqoji fəaliyyətdən sonra Bakıya dönən Zemfira xanım təcrübəli müəllim-professor qismində Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında mühazirələr oxuyur, elmi işlərə rəhbərlik edir. Hazırda onun imzasına "Respublika" və "Бакинский рабочий", "Зеркало" və "Эхо" kimi geniş oxucu kütləsinə malik qəzetlərin səhifələrində və yaxud "Musiqi dünyası", "Qobustan", "Литературный Азербайджан" jurnallarında tez-tez rast gəlmək mümkündür.

2007-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqının İdarə heyətinə üzv seçilən Zemfira Qafarova beş il ərzində "Musiqişünaslıq və Musiqi tənqidi" bölməsinin rəhbəri olmuşdur. Gördüyü işlərin nəticəsidir ki, bəstəkar və musiqişünasların sonuncu IX qurultayında İdarə heyəti onu yekdilliklə Bəstəkarlar İttifaqının katibi seçmişdir.

Zemfira xanım daim öz üzərinə düşən işin öhdəsindən böyük məsuliyyət və vicdanla gəlir. O, hər bir işə obyektiv yanaşır və işin ümumi xeyri naminə çalışır. Zənnimcə bu, çalışdığı sahədən asılı olmayaraq hər bir ziyalı üçün ən vacıb keyfiyyətdir.

## ZEMFİRA QAFAROVANIN MONOQRAFİYA VƏ KİTABLARI

1. Рамиз Мустафаев. Баку: Ишыг, 1979
2. Тофик Бакиханов. Баку: Ишыг, 1980
3. Узеир Гаджибеков. Кероглы. Баку: Язычы, 1981
4. Tofiq Bakıxanov. Bakı: Azərnəşr, 1992
5. Üzeyir Hacıbəyovun "Koroğlu" operası. Dərs vəsaiti. Bakı, 1994
6. Şəfiqə Axundova. Bakı: Qanun, 1996
7. Hacı Xanməmmədov. Bakı: Şirvannəşr, 1998
8. Тельман Гаджиев. Баку: Тафаккур, 2000
9. Али Ахвердиев. Баку: Сада, 2003
10. Азербайджанское музыкальное искусство. Статьи. Очерки. Рецензии. (1969-2008). Bakı: Səda, 2008
11. Xarici musiqi tarixinə dair mühazirələr. Bakı, 2008
12. Ramiz Mustafayev. Bakı: Səda, 2009

### Əsas elmi məqalələri

1. Автограф оперы «Кероглы». «Доклады Института архитектуры и искусства», Баку, 1971.
2. Ü.Hacıbəyovun "Koroğlu" operası və onun Azərbaycan opera sənətində ənənələri. "Qobustan" incəsənət toplusu, 1978, №3, səh. 18-22

3. Öz sənətinin vurğunu (bəstəkar İbrahim Məmmədov haqqında). "Ədəbiyyat və incəsənət", 5 dekabr, 1978
4. Мугам в операх Узеира Гаджибекова. "Профессиональная музыка устной традиции народов Ближнего, Среднего Востока и Современность". Ташкент, 1981, стр. 271-273
5. О песенном творчестве Тофика Кулиева. Журнал "Литературный Азербайджан", №9, 1981, стр. 111-113
6. Azərbaycan xor musiqisində muğam ənənələri. "Azərbaycan milli musiqisinin tədqiqi problemləri", Bakı, 1992, səh. 189
7. По мотивам Низами. Журнал "Балет", Москва, №5-6, 1993, стр. 23-24
8. Üzeyir Hacıbəyovun "Koroğlu" operasının bəzi musiqi dramaturji və üslub xüsusiyyətləri. "XX əsrin Azərbaycan musiqisi" elmi məqalələr toplusu, Bakı, 1994
9. Пропагандист виолончельного искусства – Эльдар Искендеров. Журнал "Литературный Азербайджан", №9, 2004, стр. 107-112
10. Глубокий и самобытный художник. "Tofiq Bakıxanov. Düşüncələr" kitabında. Bakı, 2006

**Zemfira Qafarova haqqında məqalələr**

1. Ramiz Zöhrabov. Sevimli pedaqoq, mahir tədqiqatçı. "Ədəbiyyat və incəsənət" qəzeti, 8 yanvar, 1993

2. Fəxra Əsgərova. 51 il səs işığında. "Həyat" qəzeti, 24 dekabr, 1992
3. Fərəh Əliyeva. Bakıdan... hörmət və məhəbbətlə. "Şərqi" jurnalı, 2002, səh. 34
4. Səadət Seyidova. Yeniliyin ehtiraslı müdafiəçisi. "Musiqi dünyası", 1-2/15, 2003, səh. 125-126
5. Рая Аббасова. Все, кому дорого настоящее и будущее нашего искусства, должны внести вклад в его развитие. Газета "Зеркало", 23 ноября, 2007
6. Рая Аббасова. Земфира Кафарова. Азербайджанское музыкальное искусство. Газета "Зеркало", 25 апреля, 2009
7. Нилюфяр Гасан гызы. Жизнь, посвященная пропаганде Азербайджанского искусства. "Вышка", 25 декабря, 2009
8. Seymur Elsevər. Üç kitab – üç tale. "Mədəniyyət", 4 sentyabr, 2009
9. Səadət Təhmirazqızı. Musiqişünasın yeni töhfəsi. "Musiqi dünyası", 3/ 48, 2011, səh. 103-104
10. İmruz Əfəndiyeva. Görkəmli musiqişünas alim. "Mədəniyyət", 17-19 noyabr, 2012
11. Айтен Ибрагимова. Искусство слова. "Зеркало", 24 ноября, 2012
12. Leyla Məmmədova (Fərəcova). Sevimli müəllimimiz. "Musiqi dünyası", 1/ 54, 2013, səh. 31-33
13. Elnarə Dadaşova. Yaradıcılığa bağlı ömür. "Qobustan" sənət toplusu, №3, payız – 2013

"Şərq-Qərb" Nəşriyyat Evi

www.eastwest.az
www.fb.com/eastwest.az

| | |
|---|---|
| Buraxılışa məsul: | Sevil İsmayılova |
| Dizayner: | Gülnar Qurbanova |
| Səhifələyici: | Kübra Bədəlova |
| Korrektor: | Nübar Qarayeva |
| Texniki redaktor: | Fəridə Səmədova |
| Baş redaktor: | Samirə Bektaşi |
| Texniki direktor: | Allahverdi Kərimov |
| Nəşriyyat Evinin direktoru: | Rasim Müzəffərli |

Çapa imzalanmışdır: 06.06.2014. Format: 70x100 1/32. Ofset çapı
Fiziki çap vərəqi 1. Sifariş 14147. Tiraj 500

"Şərq-Qərb" ASC-nin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43, Faks: (+99412) 370 18 49